# Müstəqil auditorun hesabatı

«SƏBA» ASC-nin rəhbərliyinə

Mən, Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilən 06 aprel 2010-ci il tarixli AT/087 qeydiyyatlı 047486 saylı lisenziyaya əsasən fəaliyyət göstərən "CACS AUDİT" MMC-nin auditor Sadıxov Azad Adil oğlu, «SƏBA » ASC ilə bağlanılmış 01 iyun 2016-ci il tarixli müqaviləyəəsasən, həmin cəmiyyətin 01.01.2015-cü il tarixdən 31.12.2015-cü il tarixədək olan dövr üzrə balans, maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat və balansa əlavədən ibarət olan maliyyə hesabatlarının düzgünlüyünün auditini aparmışam.

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının Azərbaycan Respublikası Maliyyə Nazirliyinin uçotun aparılması Qaydaları"na uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması, müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi, şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Mən auditi beynəlxalq audit standartlarına uyğun aparmışam. Bu standartlar məndən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edlməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli olan müvafiq əsası təmin edir.

Müstəqil auditorun hesabatı 17 iyun 2016-ci il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə auditor təşkilatında saxlanılır.

**"CACS AUDİT" MMC-nin**
**auditor A.Sadıxov**
**17.06.2016-ci il**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti CACS AUDİT Limited Liability Company Azerbaijan Republic